Səh. 2 Təbrizin fəryadı – Cəlal Yadigarlı
Səh. 5 Uzaqlarda da doğma səmanı görən İsa – Mirzə Məmmədoğlu
Səh. 6 Kiçik araşdırmamın böyük nəticəsi – Esmira Ələkbərli
Səh. 6 Uşaqların savadsızlığa meyilliliyi – Afaq Azər
Səh. 3 Vicdan sözlə deyil, əməllə formalaşır – Lamiyə Hacıyeva
Səh. 4 2025-Cİ İLDƏ TƏHSİL SAHƏSİNDƏ HƏYATA KEÇİRİLƏN DƏYİŞİKLİKLƏRƏ QISA NƏZƏR
Səh. 7 Gürcüstanın ali təhsil sistemi tarixi irs və modern islahatların kəsişməsində – Çiyalə Osmanova

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 YANVAR
2026-Cİ İL
№ 01 (241)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## İRAKLİ QARİBAŞVİLİ 5 İL MÜDDƏTİNƏ AZADLIQDAN MƏHRUM EDİLİB

Gürcüstanın sabiq Baş naziri İrakli Qaribaşvili yanvarın 12-də qanunsuz gəlirləri leqallaşdırdığına görə həbs olunub. İ.Qaribaşvili məhkəmənin qərarı ilə 5 il müddətinə azadlıqdan məhrum edilib.



Gürcüstan Baş Prokurorluğundan bildirilib ki, təqsirləndirilən sabiq Baş nazirlə prosessual razılaşma bağlanılıb. Razılaşmaya əsasən, ona Gürcüstan Cinayət Məcəlləsinin 194-cü maddəsinin üçüncü hissəsində nəzərdə tutulan cinayətə görə 5 il müddətinə azadlıqdan məhrumetmə təyin edilib.

Bundan başqa, sabiq Baş nazirə əlavə cəza kimi 1 milyon lari məbləğində cərimə tətbiq olunub və iki avtomobilin müsadirəsi nəzərdə tutulub. Həmçinin cinayət fəaliyyəti nəticəsində əldə edilmiş və yaşayış evində aparılan axtarış zamanı götürülmüş 6,5 milyon dollar pul vəsaiti dövlətin xeyrinə müsadirə ediləcək.

İrakli Qaribaşvili törətdiyi cinayəti etiraf edib və prosessual razılaşmanın şərtləri ilə razılaşıb. Məhkəmə Prokurorluğun prosessual razılaşma ilə bağlı vəsatətini təmin edib.

## XARİCDƏ 6 AY QALAN GÜRCÜSTAN VƏTƏNDAŞLARININ DÖVLƏT TİBBİ SIĞORTASI DAYANDIRILACAQ

Gürcüstan vətəndaşları ölkə hüdudlarından kənarda 6 aydan artıq müddətdə qalarsa, onların ümumi dövlət tibbi sığortası avtomatik olaraq dayandırılacaq.



Bu barədə Gürcüstanın səhiyyə naziri Mixail Sarcveladze qərar imzalayıb.

Qərara əsasən, dövlət tibbi sığortasını itirən vətəndaşların sistemə yenidən qoşulması üçün sosial xidmətlər agentliyinə müraciət etməsi və müvafiq ərizə təqdim etməsi tələb olunacaq.

## İRAKLİ KOBAXİDZE: AVROPAYA İNTEQRASİYA GÜRCÜSTANIN SİYASİ GÜNDƏLİYİNİN AYRILMAZ HİSSƏSİDİR

Gürcüstanın Baş naziri İrakli Kobaxidze Əbu-Dabi Davamlı İnkişaf Həftəsi çərçivəsində keçirilən “Orta Dəhliz – Avropa və Asiyanı Enerji Vasitəsilə Birləşdirən” panel müzakirəsində Avropaya inteqrasiyanın Gürcüstanın siyasi gündəliyinin ayrılmaz hissəsi olduğunu bəyan edib.



Baş nazir Avropa İttifaqının tamhüquqlu üzvü olacaqlarını və bu məqsədə çatmaq üçün Assosiasiya Sazişi və onun müddəalarına tam əməl olunacağının göstərildiyini vurğulayıb.

“Biz Assosiasiya Sazişini və Gündəliyini izləyəcəyik, müddəalara qətiyyətlə əməl edəcəyik. Bu baxımdan davamlı islahatlar həyata keçiriləcək”, – deyə İ.Kobaxidze bildirib.

Onun sözlərinə görə, Avropaya inteqrasiya Gürcüstanın uzunmüddətli siyasi və iqtisadi prioritetlərini gücləndirən əsas strateji hədəfdir.

## GÜRCÜSTANIN XARİCİ DÖVLƏT BORCU 38,8 MİLYARD LARİ TƏŞKİL EDƏCƏK

Gürcüstanın xarici dövlət borcu 2026-cı ilin sonuna qədər 38,8 milyard lari təşkil edəcək və bu borcun böyük hissəsi beynəlxalq banklara ödəniləcək. Bu barədə Gürcüstanın 2026-cı il dövlət büdcəsi layihəsində məlumat verilir.



Məlumatda bildirilir ki, Gürcüstanın xarici dövlət borcunun 19 milyard 88,9 milyon larisi banklara ödəniləcək. Ölkənin ən çox Asiya İnkişaf Bankına (7,075.9 milyon lari) və Dünya Bankına (6,399 milyon lari) borcu var. Avropa İnvestisiya Bankı isə 3,379.8 milyon lari ilə üçüncü yerdədir.

Beynəlxalq banklara olan borclarından əlavə, Gürcüstanın yeddi ölkəyə 1 milyard 286,2 milyon lari borcu var. Ən böyük borc Fransa (2,293 milyon) və Almaniyayadır (1,617.5 milyon). Gürcüstanın kreditorları arasında Avstriya, Yaponiya, Küveyt, Türkmənistan və ABŞ da var.

Bundan əlavə, Gürcüstanın borclarına 2026-cı ildə 1,386.2 milyon lari məbləğində yenidən buraxılması planlaşdırılan avrobond öhdəlikləri də daxildir.



# TƏBRİZİN FƏRYADI

Cəlal Yadigarlı

Bəşəriyyət tarixində insanlar dilləri, dinləri, yaşam tərzləri və mühitləri, iş alətləri ilə fərqlənməyə başladığı və əqlin təkamülü formalaşdığı zamandan bu yana fərdləri bir qrup olaraq birləşdirən bir ortaq ünsür var. Bu, etnik faktordur. İnsan qohumluq bağına çox qədim zamanlardan sadiq olub. Ailəmizin üzvü, sonra nəslimizin üzvü, sonra yaşadığımız küçənin, kəndin və ya şəhərin sakini, sonra ölkəmizin vətəndaşı, sonra böyük millətimizin nümayəndəsi və s. həmişə bizə digər insanlardan daha yaxın gəlir. Deməli, görürük ki, insanlar həmişə bir birləşdirici ünsür ətrafında qruplar yaradırlar. Ən böyük insan toplumları din və milli faktorlar əsasında yaranır. Türk milləti olaraq bizi də bir-birimizə yaxınlaşdıran, qarşımıza ortaq hədəf qoyan, adımızı, kimliyimizi müəyyənləşdirən bizim milli mənsubluğumuzdur. Tarix boyu, demək olar ki, bütün millətlər öz kimliyini qorumaq, siyasi azadlığını əldə saxlamaq, ekonomik cəhətdən inkişaf etmək, vətən dediyimiz ortaq yaşam arealının bütövlüyünü qorumaq uğrunda mübarizə aparıblar. Zaman keçdikcə bu qayə insanın qanına hopub, xarakterini müəyyənləşdirib. Bu gün bir türk öz millətinin ağrısını dilə gətirəndə adını "separatist" qoyurlar. Amerika kimi kolonialist bir ölkənin başqa dövlətlərin yaşamına müdaxiləsinə, sərvətini sömürməsinə isə heç kim səs çıxara bilmir, hətta bunun adına "demokratik" dövlət də deyirik. Amerikanın inkişaf prinsipi, siyasi qayəsi, müstəmləkə eşqi ola bilər, amma bizim millət olaraq birləşmə haqqımız ola bilməzmi? Milli hədəf başqalarına niyə adət, bizə isə bidət olub? Bəyəm biz insan deyilikmi? Niyə hər şeyi olduğu kimi qəbul etmirik? Niyə bu vandalizmlə mübarizə aparmaq əvəzinə kolonialistlərə qarşı bir sevdamız olur? Zahiri bəzəkləri aldadır bizi, yoxsa xoş vədləri?

Bəzi məsələlər var ki, tarixə əsaslanaraq öz əksini tapır. Bu gün Təbrizin fəryadına da bir tarixin pəncərəsindən baxmaq lazımdır. Yaxın Şərqdə bir çox millət birləşmək, azad olmaq üçün mübarizə aparır. Biz bu hadisələri tarixə söykənərək qiymətləndiririk. Məsələn, kürdlərin Türkiyə dövlətinin şərqində dövlət qurmaq istəkləri yersizdir, çünkü tarix boyu onların o ərazidə heç vaxt dövləti olmayıb. Amma bizim Təbriz iddiamızı tarixin hər səhifəsi təsdiqləyir. Avropa hüququna əsasən, bir dövlətin tərkibində yaşayan sayca çoxluq təşkil edən etnik qrupun muxtariyyəti və ya azadlığı olamılıdır. Bunlar da olmasa hüquqları tam şəkildə qorunmalıdır. İllərdir soydaşlarımızın İranda öz hüquqlarından məhrum olduqlarını bilirik. İranda yaşayan azərbaycanlılar başqa dövlətlərdə yaşayan etnik azlıqlara bənzəmir. Onlar yaşadıqları Güney Azərbaycanın aborigen əhalisidir və sayca üstünlük təşkil edirlər. İranda türkdilli əhaliylə fars əhalinin sayı təqribən eynidir. Sözdə islamla idarə olunan bu dövlət 40 milyon əhalini bu gün öz dilində təhsildən məhrum edir. Halbuki biz bilirik ki, islam hüququna əsasən, bir islam dövlətində yaşayan xalqların dilləri bərabərhüquqlu olmalıdır. Farslara heç kimin şəxsi qərəzi yoxdur. Atalar yaxşı deyib: "Dəymə mənə, dəyməyim sənə". Baxmayaraq ki, bu gün İranı idarə edən hər iki şəxs Azərbaycan türküdür, lakin öz soydaşlarına qarşı ədalətsiz siyasəti yenə buraxmırlar. Yuxarıda qeyd etdiyim kimi, bütün millətlərdə soydan gələn bir amil var. Buna əsasən biz bir-birimizin dərdiylə dərtlənirik. Bütün millətlər kimi, bizim də amalımız bir olmaq, varlığımızı qorumaqdır.

Təbrizdə türk əhali üçün muxtariyyət şərtdir. Bunun uğrunda C.Pişəvəri kimi çox insanlar mübarizə aparıblar, amma indi bu mübarizə davam etmir. Təbrizin İranın tərkibində muxtariyyət alması bizim yeni hədəfimiz olmalıdır. İranı parçalamaq, işğal etmək niyyəti qətiyyən ehtiva etmədən, Təbrizin haqqı olan muxtariyyət tələb olunmalıdır. İranda olan çaxnaşmalarda Təbrizlilər düzgün mövqe tuturlar, çünkü Pəhləvi rejiminin 40-cı illərdə türklərə qarşı nələr etdiyini yaxşı bilirlər. Pəhləvi Qərbin dəstəyi ilə İranda hakimiyyəti ələ keçirsə təbrizlilərin xəyalları da suya düşəcək. İndiki İran rejimi türklüyə nə qədər qarşıdırsa, qərbyönlü Pəhləvi ondan on qat artıq türk düşmənidir. Təbrizlilər bunu yaxşı bilirlər və Pişəvərinin həyatından dərs çıxarırlar.

# SÜFRƏLƏRİN BOLLUĞU İLƏ ÖLÇÜLƏN BAYRAMLAR



Tofiq əmi deyir ki, Yeni il bayramına 870 lari pul xərcləmişəm.

Deyirəm: "Tofiq əmi, siz nə etmisiniz, bütün bazarı almısınız ki?"

Deyir: "Ay bala, mən hələ nə xərcləmişəm ki, get sən Jalə xalana bax, 1700 lari pul xərcləyib".

– Nə deyim, Tofiq əmi, bayramın mübarək!

– Sənin də bala, yeni ildən sonra bir də bunun borcunu ödəyərik.

Bəli, düz oxudunuz, "borcunu ödəyərik" dedi. Çünki bizdə elələri var ki, Yeni il üçün qonşudan borc alır, bankdan kredit götürür, bayramı da borcla qarşılayırlar. Bu isə artıq tamam başqa, daha ağır bir dərddir. Bu arada bir atalar sözü yadıma düşdü: "Yat, qara öküzüm, yat, borc verən gələr, ya səni aparar, ya məni". İndi bu yazığın heç öküzü də yoxdur, görəsən nəylə ödəyəcək? Yəni adama deyərlər, çoxmu lazımdır sənə hinduşka. Nə isə.

Dekabrın 24-dən sonra rayonda bir axın başlayır ki, gəl görəsən. Elə bil dünyanın sonudur. "Qoyma, ayə, bazarda heç nə qalmayacaq!" Rayonda 20-dən çox market var, amma yeni il ərəfəsində elə bir izdiham olur ki, iynə atsan yerə düşməz. Bir çörək almaq üçün gərək 1 saat gözləyəsən.

Fişəng satanlar, hinduşka satanlar, süpürgə satanlar... Niyə məhz bu üçünü saydım? – Çünki bunları almaq mütləqdir. Xüsusən də təzə süpürgə mütləq olmalıdır.

Bir gürcü dostum var, soruşuram:

– Siz də bu qədər yemək bişirirsiniz?

Deyir:

– Nə yemək? Bir şokolad, bir şampan!

Yəni bir gün üçün bu qədər təmtərağa, bu qədər xərcə dəyərmi?

İşin başqa tərəfi də var, süfrədə hər şey olmalıdır ki, sabah deməsinlər filankəsin süfrəsində filan şey yox idi. Elə bil "Yeməkdəyiz" proqramındayıq. Üç cür salat olmasa guya yeni il gəlməyəcək. Bu nə düşüncədir axı? Sonra da bir neçə gün köhnə ildən qalan yeməkləri yeyirik. Həkimlər isə özlərini öldürürlər ki, qalmış yeməklərin ziyanlarından özünüzü qoruyun. Elə buna görə də məni yanvarın 5-i qonaqlığa çağıranda getmirəm. Niyə gedib altı günlük salatdan, qalmış yeməklərdən yeməliyəm ki?

Ümumiyyətlə, bizdə bayram anlayışı bir az fərqlidir. Bayramda sadəcə yemək ön plana çıxır. Halbuki bayramlar yalnız süfrə açmaq üçün yox, həm də dincəlmək, bir az nəfəs almaq üçündür. Məsələn, uşaqlarımızla, ailəmizlə, sevdiklərimizlə birlikdə gözəl bir gün keçirmək olar, konsertə getmək, kinoteatra getmək və ya teatr tamaşasına baxmaq, sonda isə ailə ilə birlikdə restoranda oturmaq olar. Yoxsa üç gün qalmış "Yeni il gəlir" deyə özümüzü öldürürük. Evdə saatlarla yemək bişir, salatlar hazırla, hamısını da soyuducuya yığ. Bayramın ruhu isə haradasa arada itir. Məsələ ondadır ki, bayramlarda mən həqiqətən ac qalıram. Bəzi dostlarım deyir ki, "maskovski" salatı yalnız bayramdan-bayrama yeyirik. Niyə? Başqa vaxt hazırlaya bilmərikmi? İldə bir dəfə, mütləq Yeni ildə bu salatlar süfrəyə çıxmalıdır? Məncə, bu qədər israfa qaçmaq lazım deyil. Demirəm ki, bayram keçirməyək, amma bu qədər təmtəraq və yorğunluq əvəzinə bir az da özümüzə vaxt ayıraq.

Bir çox ölkələrdə Yeni il sadə bir qarşılanma ilə qeyd olunur, sonra isə ailə ilə birlikdə qış tətilinə çıxırlar. Bayramın əsl dəyəri də elə bu sakitlik, birlik və paylaşım hissidir. Nə isə...

Yeni ilimiz mübarək olsun! Qoy bu il Vətənimizə, millətimizə, bütün dünyaya xeyir, bərəkət və sülh gətirsin. Uşaqların ölmədiyi, anaların ağlamadığı, insanların bir-birinə silah yox, sevgi uzatdığı bir dünyada yaşamaq ümidi ilə qoy 2026-cı il hər kəs üçün sağlamlıq, əminamanlıq, işıqlı sabahlar gətirsin! Bayramlar süfrələrin bolluğu ilə yox, ürəklərin doluluğu ilə ölçülsün!

**Binəli İslamoğlu**

*"BEEZ" Uşaq Teatrının bədii rəhbəri*

# SÖZ YARAYA DUZ DA OLAR, MƏLHƏM DƏ



Günümüzün əsas problemlərindən biri insan münasibətləridir. Haraya baxırsan, kimlə danışırsan hamının bir şikayəti var: boşanmalar artıb, ailələr dağılır, dostluqlar əvvəlki kimi uzunömürlü deyil, insanlar tək-tənha qocalmağa başlayıb... Əvvəllər qonşular bir-birinə gedər-gələrdi, dərdini bölüşərdi, indi isə bəzən eyni evdə yaşayan insanlar belə bir-biri ilə düzgün ünsiyyət qura bilmirlər. İnsanlar anlaşmaq üçün yox, dalaşmaq üçün danışırlar. Danışırlar ki, yaralasınlar. Danışırlar ki, qarşısındakını susdursunlar. Hətta bəzən elə sözlər deyilir ki, insan öz-özünə deyir, kaş zamanında sirrimi onunla bölüşməsəydim, kaş ona bu qədər güvənməsəydim...

İndiki dövrdə problem danışmaq və ya danışmamaq deyil, necə danışmaqdır. İnsanlar səsini qaldıraraq, bağıraraq, çığıraraq danışmağı özlərinə haqq bilirlər. Sakit danışanı zəif sayırlar. Kim daha çox qışqırdısa elə bil o haqlıdır. Amma bu, danışıq deyil, bu, hücumdur. Bu, ünsiyyət yox, müharibədir. Sadəcə silahlar dəyişib, güllə əvəzinə söz atırlar.

Ən acısı da odur ki, insanlar qarşısındakını tanıdığı üçün yaralamağı daha yaxşı bacarır. Keçmiş yaralarını bilir, zəif nöqtələrini tanıyır və məhz ora toxunur. Bir vaxtlar sirr kimi paylaşılan sözlər mübahisə zamanı silaha çevrilir. Bu sözlər adama şillədən daha ağır olur.

İnsanlar bir-birini sözlə məğlub etməyə çalışırlar. Məqsəd problemi həll etmək deyil, qarşı tərəfi sındırmaqdır. Daha çox incidən, daha ağır danışan qalib sayılır. Amma belə qalibiyyətlərin sonunda itən hər zaman münasibət olur. Sevgi itir, hörmət itir, etibar itir. Sonra da hər kəs öz küncünə çəkilib "mən haqlı idim" deyir.

Əslində, problem birdən-birə yaranmır. Heç kim bir günün içində dostundan, həyat yoldaşından, ailəsindən uzaqlaşmır. Hər şey xırda-xırda başlayır. Deyilməyən sözlər, içində saxlanan incikliklər, "boş ver, deməyə dəyməz" deyilən narazılıqlar zamanla yığılıb böyük bir divara çevrilir. Sonra da o divarı aşmaq çətin olur.

İnsanlar çox vaxt qarşı tərəfin onları anlamadığından şikayət edirlər. Amma sual versən ki, sən özün nə qədər açıq danışmısan? Nə qədər hisslərini, fikirlərini düzgün şəkildə ifadə etmisən? Sualımız cavabsız qalacaq. Çoxumuz qarşı tərəfin bizi öz-özünə anlamasını gözləyirik. Elə bil fikrimizi oxumalıdır. Oxumayanda da inciyirik, küsdüyümüzü belə demirik, sadəcə uzaqlaşırıq və ya başqa lazımlı-lazımsız bəhanələrlə bağırıb-çığırıb gedirik.

Boşanmaların artmasının səbəbi də çox vaxt sevgisizlik deyil, danışa bilməməkdir. İnsanlar bir-birini sevməyi bacarır, amma bir-birini dinləməyi bacarmır. Hər kəs haqlı olmaq istəyir, amma qarşı tərəfi anlamağa çalışmır. Mübahisələrdə məqsəd problemi həll etmək yox, qalib gəlmək olur. Halbuki münasibətlərdə qalib də, məğlub da eyni olur.

Dost çevrəsinin az olması, hətta bəzən heç olmaması da bununla bağlıdır. İnsanlar tez inciyir, tez qırılır, amma düzəltməyə çalışmır. Bir səhvə görə illərlə qurulan dostluqlar bitir. Bir anlıq əsəb, bir ağır söz illərin dostluğunu silib ata bilir. Halbuki hər insan səhv edə bilər. Əsas olan səhvi danışaraq həll etməkdir. Sonra da "artıq heç kimə güvən yoxdur" deyirik. Amma bəlkə də problem başqalarında yox, bizim danışıq tərzimizdədir. Bəlkə də biz haqqımızı qorumaqla qarşımızdakını yaralamağı səhv salırıq.

Telefon arxasında mesajlar yazırıq, paylaşımlar edirik, amma səmimi ünsiyyət orada yoxdur. Üz-üzə danışmaqdan qaçırıq deyə onu seçirik, çünki üz-üzə danışmaq çətindir. Çətin olanı isə çox vaxt seçmirik. Asanı seçirik – susmağı, görməməzlikdən gəlməyi, həyatımızdan kimisə silməyi... Halbuki bir çox problem sadəcə bir söhbətlə həll oluna bilər. Düzgün zamanda, düzgün tonda, qarşı tərəfi incitmədən danışmaq münasibətləri xilas edə bilər. Danışmaq zəiflik deyil, əksinə, cəsarətdir.

Sonda demək olar ki, insanlar bir-birinə bir az daha anlayışla yanaşsa, dinləməyi öyrənsə, bəlkə də bu qədər ayrılıq, bu qədər tənhalıq olmaz. Çünki söz həm yaraya duz səpə bilər, həm də yaraya məlhəm ola bilər. Seçim isə hər zaman danışanın əlindədir. Axı böyüklər boşuna deməyiblər: "İnsanlar danışa-danışa, heyvanlar dalaşa-dalaşa".

**Aytən Fətullayeva**
*Tbilisi Dövlət Universitetinin Dəqiq və təbiət elmləri fakültəsinin 3-cü kurs tələbəsi*

# VİCDAN SÖZLƏ DEYİL, ƏMƏLLƏ FORMALAŞIR



İnsan oğlu başına gələnlərdən, ətrafında baş verən hadisələrdən dərs çıxarmalı deyilmi? Başqasının yaşadığı acı təcrübə vicdanını sızlatmalı, insanı özünü nizama salmağa sövq etməli deyilmi? Təəssüf ki, çox zaman bunun əksini görürük. Cəmiyyət içində məsuliyyətsizlik və laqeydlik getdikcə daha geniş yer tutur. Bəs bu halın kökündə nə dayanır?

İnsan davranışları təsadüfi formalaşmır. Onun düşüncə tərzi, hadisələrə münasibəti, doğru ilə yanlışı ayırd etmə bacarığı böyük ölçüdə ailədə qoyulan təməllərlə bağlıdır. Tərbiyəli, nizamlı bir ailədə böyüyən uşaqla laqeydliyin hökm sürdüyü bir mühitdə yetişən uşağın həyat yolları kəsişəndə problemlər məhz orada ortaya çıxır. Çünki biri qayda-qanun, hörmət və məsuliyyət anlayışı ilə böyüyür, digəri isə yalnız öz rahatlığını düşünməyi öyrənir.

Övlad dünyaya gətirmək, onun yeməyini, suyunu, geyimini təmin etmək valideynlik borcunun yalnız zahiri tərəfidir. Əsl məsuliyyət isə uşağa insan olmağı öyrətməkdir. Vicdan, empatiya, başqasının haqqına girməmək, səhvdən dərs çıxarmaq kimi dəyərlər ailədə aşılanmadıqda cəmiyyət bunun acı nəticələrini gec-tez yaşayır. Belə fərdlər başqasının başına gələn müsibətdən ibrət almır, etdiyi səhvlərin məsuliyyətini üzərinə götürmür, hətta zərər verdiyi insanların ağrısını hiss etmir.

Laqeydliyin bir səbəbi də fərdi həyatın cəmiyyət həyatından ayrı düşünülməsidir. Bir çox insan yalnız öz ailəsi, öz rahatlığı, öz maraqları ilə kifayətlənir. Halbuki hər bir uşaq yalnız bir evin deyil, eyni zamanda bir cəmiyyətin üzvü kimi böyüyür. Bu gün verdiyimiz tərbiyə sabah küçədə, məktəbdə, iş mühitində qarşımıza çıxır. Öz övladına qayda öyrətməyən valideyn, əslində başqasının övladına problem yaradan bir fərd yetişdirir.

Cəmiyyət üçün fərd yetişdirmək anlayışı nə zaman şüurumuza yeriyəcək? Nə zaman anlayacağıq ki, tərbiyə yalnız şəxsi məsələ deyil, ictimai məsuliyyətdir? İnsan öz davranışlarının başqasının həyatına necə təsir etdiyini dərk etmədikcə laqeydlik davam edəcək. Vicdan isə yalnız sözlə deyil, əməllə formalaşır.

Bu gün cəmiyyət olaraq ehtiyac duyduğumuz ən əsas dəyər məhz budur: başqasının yaşadığı hadisədən dərs çıxarmaq, özümüzü sorğulamaq və məsuliyyət hissi ilə yaşamaq. Əks halda, tərbiyəli ilə tərbiyəsizin, nizamlı ilə nizamsızın yolları kəsişdikcə problemlər dərinləşəcək. Hər dəyişiklik ailədən başlayır və hər ailə cəmiyyətin güzgüsüdür.

**Lamiyə Hacıyeva (Eminova)**
*Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Qadınlar Şurasının sədri*

# 2025-Cİ İLDƏ TƏHSİL SAHƏSİNDƏ HƏYATA KEÇİRİLƏN DƏYİŞİKLİKLƏRƏ QISA NƏZƏR




2025-ci il təhsil sahəsi üçün yeniliklər ili oldu. Gürcüstanın Təhsil Nazirliyi hökumətlə birlikdə ictimaiyyətə mühüm dəyişikliklər təqdim etdi. Elan edilmiş islahatları tamamlasalar həmin dəyişikliklərin nəticələri də qısa dövr ərzində hiss olunacaq. Strategiya və konsepsiyaların tez-tez dəyişdirilməsində Təhsil Nazirliyi seçilir və bunun təsdiqi olaraq 2025-ci ildə qəbul edilmiş qərarlar da kifayətdir.

Ötən ildə təhsil sahəsində baş verən dəyişiklikləri birlikdə gözdən keçirək. Ancaq bu dəyişikliklərdən danışana qədər qeyd edək ki, ənənə bu il də pozulmayıb – 2025-ci il Aleksandre Tsuladzenin nazirliyi ilə başladı və hələ ki Givi Mikanadzenin nazirliyi ilə davam edir. Təhsil, Elm və Gənclər Nazirliyində rəhbərlərin tez-tez dəyişməsi artıq heç kimi təəccübləndirmir. Hər yeni nazirin qəbul etdiyi dəyişiklik və ya ləğv etmə yenilik deyil və ötən il də buna yaxşı nümunədir.

2025-ci ilin başlanğıcında öyrəndiyimiz mühüm dəyişikliklərdən biri bu idi ki, baza pilləsi 9 il əvəzinə 10 illik olur. Ancaq qeyd edək ki, bu dəyişiklik də qısamüddətli oldu və baza pilləsi yenə 9 illik qalır. Ümumtəhsil islahatının yeni konsepsiyasında belə yazılıb. Həmin konsepsiyanı təhsil naziri Givi Mikanadze təqdim edib.

Qeyd edək ki, ötən il ilk dəfə 2025-ci ilin 31 dekabrında 6 yaşı tamam olan uşaqlar birinci sinfə qəbul oldular. Amma bu qayda da yenidən dəyişdi və 2026-cı ildən 15 sentyabra qədər 6 yaşı tamam olan uşaqlar məktəbə gedə biləcəklər.

Struktur dəyişiklikləri baxımından da mühüm dəyişikliklər müzakirə edildi. Təhsil Nazirliyində iki dəfə reorqanizasiya həyata keçirildi. Birinci dəfə apreldə, Aleksandre Tsuladzenin nazirliyi dövründə aparılan reorqanizasiya nəticəsində onlarla adam işsiz qaldı, şöbə və agentliklər ləğv olundu. Təhsil Nazirliyi İnklüziv Təhsilin İnkişafı İdarəsini ləğv etdi. Bu valideyn və mütəxəssislərin böyük narazılığına səbəb oldu. Ancaq qurumdan bildirmişdilər ki, idarə ləğv edilməyib, Strateji Planlaşdırma İdarəsinə birləşdirilib. Tez zamanda aydın oldu ki, Məktəbəqədər Təhsil İdarəsi də ləğv olunub. İyunda isə Təhsil və Elm İnfrastrukturu Agentliyinin ləğv edilməsi haqqında da məlumat yayıldı. Agentliyin funksiyaları üç nazirliyə bölündü.

İyunun sonunda Aleksandre Tsuladze vəzifəsini tərk etdi və təhsil naziri olaraq Parlamentin Təhsil, Elm və Gənclərin işi Komitəsinin sədri Givi Mikanadze təyin olundu. O, qeyd etdi ki, aparılan islahatlar qüvvədə qalacaq və onların həyata keçirilməsi tezləşdiriləcək. Ancaq ilin ikinci hissəsində planlar dəyişdi – ali və ümumi təhsil islahatı konsepsiyasının səsləndirilməsi bir çox əvvəlki fərmanları, dəyişiklikləri ləğv etdi.

Yeni nazirin təyin edilməsindən bir ay ərzində müəssisədə yenidən reorqanizasiya işləri başladı. Nəticədə Beynəlxalq Təhsil Mərkəzi və Peşə Bacarıqları Agentliyi ləğv olundu.

Dövlət məmurları üçün ikinci işdə işləməyin qadağan edilməsi mühüm dəyişiklik idi. Noyabrdan qüvvəyə minən həmin qanuna əsasən, pedaqoqlara ikinci məktəbdə, təhsil mərkəzində və ya başqa işdə işləmək üçün direktorun yazılı razılığı lazım oldu.

2025-ci ildə ilk dəfə dövlət dilində imtahan keçirildi. Ali və ümumi təhsil istiqamətində mühüm dəyişikliklər planlaşdırıldı.

Parlament konsepsiyanı təsdiq edib və müvafiq fərman da verib. İslahata görə, 3+1 sistemi təsis edilir. Yəni bakalavr təhsili 3 il, magistratura təhsili isə 1 il olacaq. Peşələrin əsas hissəsi tam qrafiklə işləyəcək və dövlət universitetlərində eyni fakültəyə qəbul olmayacaq. Ali təhsilin maliyyələşdirilməsi sistemi də dəyişəcək. Ancaq konkret olaraq necə olacağını hələ də bilmirik. Həmçinin istisna hallardan başqa dövlət ali təhsil müəssisələrinin xarici ölkə tələbələrini qəbul etmək hüququ olmayacaq.

Ali təhsildən sonra dəyişikliklər küləyi ümumtəhsil istiqamətində də əsdi. Bildirildi ki, ümumi təhsil 11 illik olacaq, ancaq xüsusi siniflər olacaq ki, şagirdlər qeydiyyatdan keçməklə 12 il oxuyacaqlar. Eləcə də dərs prosesində mobil telefonlardan istifadə etmək qadağan olunur. Birinci sinifdən altıncı sinfə qədər məktəbli forması məcburi olur, baza pilləsi isə yenidən 10 illik olacaq. Dəyişikliklər dərsliklərə də aid olacaq – Nazirlik özü tədris üçün dərsliklər hazırlayacaq. Özəl məktəblərin də bu dərsliklə tədris aparmaq öhdəliyi olacaq. Ancaq ümumtəhsil islahatı hələ də təsdiq olunmalıdır. Ona görə də dəyişikliklər yenidən müzakirə oluna bilər.

Əməkhaqqı ilə bağlı qeyd edək ki, məktəbin texniki heyətinin və administrasiyanın əməkhaqqı 2026-cı ildən 20 % artır. Ancaq yeniliklər müəllimlərə aid deyil. Çünki maliyyə nazirinin müavini Giorgi Kakauridze bildirib ki, "müəllimlərin əməkhaqqına üçillik proqnozla nəzərdə tutulmuş məbləğ artıq əlavə olunub, bu il əməkhaqları artmayacaq".

Qeyd edək ki, dekabrın sonunda Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəz 2026-cı ilin imtahan proqramını yayımlayıb. Proqrama əsasən, gürcü dili və ədəbiyyatına, eləcə də tarix proqramına ötən ilin imtahanlarından götürülmüş bütün məsələlər əlavə olunub. Proqramın genişləndirilməsi səbəbləri ilə bağlı heç kim şərh bildirməyib. Ancaq 2024-cü ildə Baş nazir bildirmişdi ki, "şagirdlərin tələbi ilə proqramdan bu əsərləri çıxarmışıq"...

Təhsil ilinin yekunlaşdırılması zamanı məktəbəqədər təhsili də unutmamalıyıq. 2025-ci ilin mühüm yeniliklərindən biri uşaq bağçalarında avtorizasiya prosesinin başlanmasıdır. Bir neçə illik təxirdən sonra 2025-ic ildə Təhsilin Keyfiyyəti üzrə Milli Mərkəz uşaq bağçalarından avtorizasiya prosesinə başlayıb. Bağçalar isə illik özünüqiymətləndirmə formasını doldurmağa başlayıblar.

Bu mərhələdə yalnız Tbilisi uşaq bağaçalarına aid olan dəyişikliklərdən biri elektron qeydiyyat sisteminin qəbul olunmasıdır. 2026-cı ilin 15 yanvarından paytaxtın bütün uşaq bağçalarında müəllim və uşaqların bağçaya gedib-qayıtması elektron qaydada qeydə alınacaq. Qeyd edək ki, bağça əməkdaşlarının əməkhaqqı 1 yanvardan 10 % artırılacaq.

Göründüyü kimi, 2025-ci il həqiqətən də yeniliklərlə yüklü il idi. Bu dəyişikliklər təhsilin keyfiyyətinə müsbət təsir edəcəkmi, etməyəcəkmi – bunu gələcək göstərəcək.

*Mənbə: etaloni.ge*
*Gürcü dilindən tərcümə etdi:*
*Aynurə Əliyeva*

# UZAQLARDA DA DOĞMA SƏMANI GÖRƏN İSA



İsa İsmayılzadə yaşasaydı indi onun yaşı 85 olardı. Və xeyli şeir topluları, bədii tərcümələri olardı. Azərbaycan ədəbiyyatı üçün xeyli işlər görərdi. Qismət, taleyin yazısı belə imiş...

İsa İsmayılzadə 1941-ci ildə Gürcüstanın Qarayazı (indiki Qardabani şəhəri) qəsəbəsində anadan olub. Özü yazır:

*Mənim doğulduğum il*
*naməlum bir əsgərin*
*adı, ünvanı oldu.*
*Mənim doğulduğum il –*
*səngərlər də doğuldu,*
*tüstülər də doğuldu.*
*Səngərlərdə doğuldu,*
*tüstülərdə doğuldu,*
*mənim doğulduğum il.*

Bəli, Qarayazıda bir körpə dünyaya gəldi. Alın yazısında yazılanlar müstəvisindən boy göstərərək poeziya kəhkəşanında bir ulduz olaraq parladı. Ulduzlara meyilini saldı, onları tanıdı. Özünə yaxın bildi. Nəhayət, elə ilk şeir toplusunu ulduzlara həsr etdi. "Ulduzların ad günü" adlı ilk kitabı Bakıda "Gənclik" nəşriyyatında nəşr olundu. Bu kitabla Azərbaycan ədəbiyyatında yeni cığırın salınmasını hiss edənlər, aşkarcasına deyənlər də oldu.

Bilirdim ki, Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirib. Sonralar mən də universitetin eyni fakültəsini bitirdim. Universiteti bitirəndən sonra Vətənə qayıdaraq vaxtilə təhsil aldığı orta məktəbdə bir-iki il müəllim işləyib. Yeri gəlmişkən qeyd edim ki, Azərbaycan ədəbiyyatında böyük xidmətləri olan, Qarayazının da üzünü ağ edən İsa İsmayılzadənin adı verilməli idi bu məktəbə. Nə isə. Məktəbdə müəllim işləyən vaxtlar arabir o vaxtlar kommunistlərin orqanı olan "Sovet Gürcüstanı"na gedərdi. Bildiyimə görə, rəhmətlik Abbas Abdulla və elə rəhmətlik İsa İsmayılzadə o qəzetdə çox fırlandılar. Bir iş tapa bilmədilər. Atın qabağına ət qoyulan, itin qabağına ot qoyulan müstəvidən kommunist redaktorlar onları işə götürməzdilər. Götürmədilər də. Onlar buradan başlarını götürüb Bakıya getdilər. Getdilər, ədəbi mühitə düşdülər. Və hər şey elə buradan başladı.

Mən hələ orta məktəbin yuxarı siniflərində oxuyanda "Azərbaycan" və "Ulduz" jurnallarını oxuyurdum. Sinif yoldaşım Sabitin atası Rəhman Nəsib oğlu müəllim idi. Poeziya vurğunu idi. Yaxşı şeirlər də yazırdı. Onun şeirlərini sonralar Gürcüstan radiosunda işləyəndə öz ifasında lentə aldım. Yutuba yerləşdirmişəm. Nə isə, sinif yoldaşım, həm də qardaşlığım, məndən ötrü evin taxtapuşuna çıxar, orada səliqə ilə dəst-dəst bağlanmış "Ulduz" və "Azərbaycan" jurnallarından mənə oxumağa verərdi. Mən də həvəslə oxuyurdum. Gürcüstandan gedən Vilayət Rüstəmzadə, Eyvaz Borçalı, İsa İsmayılzadə, Abbas Abdullanın, bir yerli olaraq, şeirlərini, yazılarını izləyirdim. Nəhayət, Bakıya oxumağa getdim. Sənədlərimi Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə verdim. Qəbul olunmadım. Qaldım Bakıda, bir zavodda işə başladım. Ara-sıra dram və ədəbiyyat dərnəyinə gedirdim. Ədəbiyyat dərnəyi M.F.Axundov adına Dövlət Kitabxanasında idi. Dərnəyi tanınmış şair Nəriman Həsənzadə aparırdı. Gözəl də aparırdı. Bir neçə dəfə orada İsa İsmayılzadədən söz düşdü. Onun "Güllələr demədi..." şeirini təqdir edirdilər. Onu arayıb axtardım. Onda "Ulduz" jurnalında işləyirdi. Getdim yanına. Bir az söhbətdən sonra bir neçə şeirimi ona göstərdim. Oxudu, sezilməz dərəcədə dodağını büzdü, təbəssümlə üzümə baxdı. Heç nə demədi. Bildim ki, bəyənmədi, şeirlərim də elə sən deyən yaxşı şeirlər deyildi. Sonralar anladım. Dram dərnəyinə də getdiyimdən eloğlularımızın şeirlərini yığırdım. Nədənsə, öz əlyazmaları ilə. Birinci Vilayət Rüstəmzadədən aldım. "Borçalı bağlarında" şeirini öz dəst-xətti ilə mənə verdi. "Oxu, bülbül, oxu!" ilk şeirlər kitabını da hədiyyə etdi. Sonra "Ulduz" jurnalının redaksiyasına getdim. İsa İsmayılzadəni tapdım. Gəlişimin məqsədini ona dedim. Öz əlyazması ilə bir şeirini istədim. Əlüstü, bir nəfəsə "Güllələr demədi..." şeirini yazdı. İndi onu arxivimdə saxlayıram. Sonralar onun bir şeir kitabı – "Torpaq nəğməsi" kitabı əlimə keçdi. "Sovet Gürcüstan"ı qəzetində bu kitab barəsində böyük bir yazım çıxdı. Vaxt gəldi Gürcüstan radiosuna işə düzəldim. Öz ifasında onun şeirləri var idi fonotekamızda. Ara-sıra verirdik. Sonra onu arxivə köçürdüm. Yutuba da yerləşdirdim. Tbilisidə onun anadan olmasının təntənəli şəkildə keçirilən 70 illik yubileyində bu lent yazılarının üzünü onun oğlu Araza verdim.

...Mən Gürcüstan radiosunda işləyirdim. Günlərin biri günü redaksiyanın rəhbəri Emin müəllim dedi ki, İsa İsmayılzadə gəlib, get qarşıla. Aşağıya düşdüm. Görüşdük. Əyninə layka deyilən dəri plaş geyinmişdi. O vaxtlar dəb idi. Dəb öz yerində, ona çox yaraşırdı.Tanıdı məni və bir də "Sovet Gürcüstanı" qəzetində onun "Torpaq nəğməsi" kitabı barəsində yazıma görə təşəkkürünü bildirdi. Həmin vaxtlar bizim bilavasitə rəhbərimiz türkoloq, Azərbaycan dilini də düz-əməlli bilməyən Leyla Eradze idi. Başqa yerdə oturardı. Söhbət əsnasında dedi ki, Leyla Eradzeni görmək istəyirəm. Getdim çağırmağa. Gəldi, görüşdülər. Əliboş gəlməmişdi. Ona kənd qaymağı gətirmişdi. Ona öz dilimizdə "kənd qaymağı gətirmişəm" dedi. O, gülərək aldı. Mən yuxarı çıxdım. Onlar söhbətini davam etdirdi. Sonralar öyrəndim ki, Leyla Eradze onun şeirlərini tərcümə edirmiş. Kiçik kitab şəklində nəşr olunduğu da məlum oldu. Onu da deyim ki, Leyla Eradze şair deyildi. Düzdür, onun Azərbaycan dilində kiçik şeirlər kitabı nəşr olundu. Şeirləri Nəbi Xəzri, Cabir Novruz, Nəriman Həsənzadə... kimi tanınmış şairlər tərcümə etmişdilər. Daha doğrusu, özləri yazmışdılar. Nə isə. İsa İsmayılzadənin dəst-xətti başqa idi. Terenti Qraneli, Qalaktion Tabidze, Tariyel Çanturiya, Şota Nişnianidze, Murman Lebanidze, Zezva Medulaşvili ruhlu şairlər tərcümə edərdi. 86 yaşı haqlamış, hazırda Tianeti rayonunda kənddə yaşayan Besik Xaranauli yaxşı tərcümə edərdi. Onu da qeyd edim ki, Zezva Medulaşvili onun xeyli şeirlərini tərcümə edib. Rəhmətlik onu boyu balaca olduğuna görə "Batara İsa", yəni "Balaca İsa" adlandırırdı. "Koroğlu" dastanını, bayatılarımızı gürcü dilinə tərcümə edən Zezva Medulaşvilinin sağlığında, demək olar ki, hər həftə yanına gedirdim. Gicitkəni üsulca təmizləyər, gözünə də bir neçə yumurta vurar, ondan yaxşı sup hazırlayardı. Soyuducudan həyat yoldaşının hazırladığı ətli xörək də çıxarar, qızdırar, süfrəyə qoyardı. Mənə gənəşərdi: şərab içəcəksən, yoxsa caca. Cacanı "it südü" adlandırırdı. Bala-bala içib, ordan-burdan söhbət açar, sonra ədəbiyyata keçərdik. İlk növbədə Məmməd Arazı, İsa İsmayılzadəni xatırlayar, kövrələrək şərəfinə badə qaldırardı. Bir dəfə hər ikisinin göndərdiyi açıqcaları mənə göstərdi. Ruhumuzun tərcümanı idi Zezva. İsa İsmayılzadənin az yaşamasına acıyırdı. "Batara İsa" çox işlər görərdi, – deyirdi. Deyirdi və kövrəlirdi...

...Odur ki, Zezva Medulaşvilinin iki şair sevgisi müstəvisindən Xalq şairi Məmməd Arazın İsa İsmayılzadə haqqında dediklərini xatırlamaq istəyirəm: "İsa İsmayılzadənin bütün şeirlərinin, demək olar ki, əvvəli də Vətəndir, axırı da Vətən. Vətən adı çəkdiyi şeirlərində də belədir, çəkmədiyində də. İsa İsmayılzadə üçün Vətən vətən daşından başlayır. Onun şair taleyi heç vaxt relslər üzərində maneəsiz hərəkətdə olmayıb. Həyatda elə bir qüvvə var ki, onun qolundan yapışaraq yıxılmaqdan xilas edibdir. Bu qüvvənin adı Vətən sevgisidir".

Zatən özü də deyirdi:

*Sən mənim köksümdə çarpan ürəksən,*
*Mən sənin köksündə – kiçik bir zərrə.*
*Mənə qanad verən odlu diləksən,*
*Adına, özünə Vətən deyirəm,*
*Çölünə, düzünə Vətən deyirəm.*

Bəli, doğma yurdunun adına, özünə, çölünə, düzünə Vətən deyib. Bu, sevgidən irəli gəlir, vətən sevgisindən. Dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytmatov yazıb: "Uşaqlığını harada itiribsənsə, ora sənin vətənindir". Oxuduğuma görə, "Torpaq nəğməsi" kitabındakı şeirlər məhz elə şairin doğulduğu yerə, uşaqlıqda gəzdiyi meşələrə, düzlərə, Kür çayına və tanış cığırlara olan dərin, səmimi sevgi və həsrəti əks etdirmişdi. Şair özünəməxsus deyib:

*Başımı qaldırıb göylərə baxdım*
*Gördüm bir səma var, doğma bir səma.*
*Gördüm bir günəş var doğma bir günəş.*
*Mənim o günəşə qanım qaynayıb,*
*Yoxuşa, enişə qanım qaynayıb...*

Bu yazıda onun geniş şəkildə təhlilinə keçmək fikrim yoxdur. Hər halda bəzi məqamlara toxunmaq istəyirəm. Bir vaxtlar Qarabağ Azərbaycan üçün, Azərbaycanı sevənlər üçün, bir də yönümüzü, səmtimizi Azərbaycana yönəldən bizlər üçün dərd idi, ağrı idi, çözülməmiş problem idi.

İsa İsmayılzadə bu ağrını içində çəkərək duyğularını bir-iki sətir ilə ifadə etmişdi:

*Özü boyda baş daşıdır Qarabağ,*
*Çöküb, çöküb sinəmizə.*
*Dirigözlü şəhid olduq,*
*Tez olun, Vətən boyda,*
*Şəhid qəbri qazın bizə...*

...Nəhayət, bu problem çözüldü, ağrımız, dərdimiz bizlərdən sovuşdu. Amma İsa İsmayılzadə bunları görmədi. Görsəydi mütləq deyərdi: Vətən boyda çələng hörün başımıza...



Və ona qayıdım – özünün doğum ilində müharibənin başlanmasına. İstedadlı şair Allahverdi Təhlələnin hələ gənclik çağlarında yazdığı şeiri xatırlamaq istəyirəm. "Dava kəndimizdən uzaq olsa da, dava kəndimizin içindən keçib". Moruq dərən, at çimizdirən, bığ yeri yenicə tərləyən uşaqların davaya getdiyini İsa İsmayılzadə gözləri ilə görməsə də böyüklərdən eşitdi. İçindən müharibəyə, güllələrə nifrət etdi. O gedənlərə güllələr heç nə demədi, amma güllələrə o, öz sözünü dedi. Və aləm bildi...

*Getdilər, getdilər Berlinə sarı,*
*getdilər, getdilər ölümə sarı.*
*Güllələr demədi: geri qayıdın.*
*Lülələr demədi: geri qayıdın,*
*qəlpələr demədi: geri qayıdın,*
*hələ uşaqsınız, nə yaşınız var...*

İsa İsmayılzadəyə sərbəst şeirlər yazmaqda irad tutanlar da olub. Əslinə baxsan, sərbəst şeir yazmaq heç də asan deyil. Önəmlisi, fikri, duyğunu qəlibləmək, qəlibə salmaqdır. Oxucunun qəlbini riqqətə gətirməkdir. Onunla dil tapmaq lazımdır. Tanınmış gürcü şairi Mixail Kvlividze yazırdı: "Mən şeir yazmıram, mən oxucu ilə söhbət edirəm". İsa İsmayılzadə də söhbət edir. Onun gənclik vaxtlarımda oxuyub yaddaşıma həkk etdiyim kiçik bir şeirini indi də əzbər bilirəm. Əla şeirdir. Qafiyəmi deyirsiniz. Qafiyəsi də var. Zor deyilib:

*Dağında vüqarlı qartal oluram,*
*Dünya ayağımın altında qalır...*
*Səndən uzaqlarda xəyal oluram,*
*Həsrətdən gözümün kökü saralır.*

Yuxarıda dediyim kimi, onun şeirlərinin təhlilinə geniş şəkildə keçmək fikrində deyiləm. Çox çəkər. Odur ki, ona həsr etdiyim şeirlə yazımı bitirmək istəyirəm:

*Biri var...*
*İsa İsmayılzadəyə*
*Bu dünyanın bu üzündə*
*Hər nağılın kəlməsində, sözündə*
*Biri vardı, biri...Və biri yenə vardı.*
*Tanrıya tapınardı, Tanrıdan söz umardı.*
*Sözü sözə calayaraq*
*Göydən yerə, Yerdən göyə yol açardı...*
*Bu yolun bir ucu uzaq mavilik,*
*Bir ucu saflıq, ülvilik.*
*Və o mavilikdən gələn*
*Biri vardı və yenə biri var...*

**Hörmətlə: Mirzə Məmmədoğlu**

# KİÇİK ARAŞDIRMAMIN BÖYÜK NƏTİCƏSİ





Səməd Vurğun “Yevgeni Onegin”i tərcümədən sonra yazmışdı:

*Axıtdım alnımın incə tərini,*
*Yanmadım ömrümün o üç ilinə.*
*Rus ədəbiyyatının şah əsərini*
*Çevirdim Vaqifin şirin dilinə!*

Yox-yox, qəti özümü müqayisə etmirəm, sadəcə maraqlı bir layihə düşündüm, bunun üçün bir yola çıxdım, yolum XXI əsrin yenilikləri ilə işıqlanmışdı... Sadə bir kənd müəllimi məktəbindən evə dönür, həmişəki ailə qayğıları, analıq məsuliyyəti, evdarlıq cədvəlini yekunlaşdırdıqdan sonra elə mətbəxdəncə marağının iziylə layihəsini həyata keçirmək üçün işıqlanmış yolun səkisi ilə irəliləyir. Bəli, köməkçi ümumdünya hörümçək toru – www idi...

Qəhrəmanıma fərqli yöndən, fərqli baxışdan yanaşdım, heç kimin baxmadığı səmtdən. Onu hamı tanıyır. Əksəriyyət sevir, amma millətin, xalqın şairi kimi. Kiminçün dostdur, kiminçün millət vəkili; kimlərsə uşaqlıq xatirəsiylə, kimlərsə tələbə yoldaşlığıyla və s. yadda qalıb.

Mən iki ayın hər günü axşam saatlarında, hər kəsin ailə çırasının işığına yığılan vaxtı kiçik mətbəximdən böyük səyahətə çıxdım. Rusiya, Azərbaycan, Türkiyə, Orta Asiya, Gürcüstan... bəzilərimizin tanıdığı, bəzilərimizin heç tanımadığı adamların xatirələrini dinlədim, öz marağımın ünvanı olan suallarımla yeni deyilməmiş mövzular tapdım.

Zəlimxan türk dünyasının əvəzsiz mənəviyyat ruhlu qəhrəmanı idi. Haqqında kifayət qədər yazılsa da, deyilsə də, hələ nə qədər deyiləcək, yazılacaq. Ancaq mən onun həyatının yalnız Borçalı – Gürcüstan səhifəsini vərəqlədim. Vərəqlədikcə neçə-neçə oxunmamış sətirlər tapdım, hər xatirə özüylə bir mizrabı götürdü, sazın kövrək avazıyla elimizin, obamızın Zəlimxanlı günlərini təzədən yaşadıq. Xatirələr şahidlərin dilində 10 ilin Zəlimxan yoxluğunda canlandı.

Mən 1950-ci ilin bir qış səhərində sevincək məktəbə xəbərə qaçan qadını, daxili – bir dünya, xarici – başqa olan Rəşid müəllimi tanıdım, riyaziyyatçı olsa da incə ruhlu Yusif müəllimi tanıdım, dünyanın yarısı olan sovet hökumətinin yuxusuna haram qatan Kəpənəkçi kəndinin odun oğurluğuna gedən uşaqları ilə danışdım, pəhlivan kimi qoçaq yeniyetmə Zəlimxanın uşaqlıq və gənclik sərgüzəştlərini dinlədim... Sonra film kimi gözüm önündə pillə-pillə tanındı o gənc. Ədəbi mühitdə elə tanındı, elə sevildi ki, hətta Xəlil Rza kimi xalqın adamı olan xalq şairi deyirdi ki, siz Zəlimxana xalq şairi deyin, o əsl xalqın şairidir.

Xalq yaradıcılığını su kimi içən Zəlimxan Yaqubun tale yolunda bir bulaq fəvvarə oldu, bununla da onun cənnəti təravətləndi. Kürəyinə qonan əl dedi: Səni tanıyıram, qiymətləndirirəm, harada olsan unutma, əlim kürəyindədir! Zəlimxan ədəbi mühitdə vardı, amma onu sazıyla, sözüylə dövlət səviyyəsinə bu əl qaldırdı, olacaqların olmasına şərait yaratdı. Az yaşında Çindən Türkiyəyə dövlət xadimləri cərgəsində yer aldı. Bu əl onu ədəbi mühitdən ictimai xadim, oradan rəsmi dövlət xadimi zirvəsinə apardı. O, zirvəyə ucaldı, amma heç ədalanmadı, daha da sadələşdi, saflaşdı, uşaqlaşdı, axı o zirvədən Borçalıya baxırdı. Bu zirvədə yurddaş olmaq daha asan idi.

Zəlimxan vaxt etdikcə el-el, oba-oba Borçalını təzədən gəzdi, problemləriylə maraqlanırdı, baxmayaraq, millət vəkili idi, hər görüşünün sonunda ziyafət məclisinə restoranlara getməzdi, xalqın içində, kiminsə evində, başına qarapapaq qoyub, əlinə saz götürüb el adamı olurdu.

Mənə göndərilən yayımlanmayan onlarla videoda o danışırdı, həmişəki kimi odlu-alovlu, amma sonda şeirə, sənətə dönürdü. Dövlət rəsmisi 37-nin qıra bilmədiyi elin sevgisi, yaddaşıyla yaşamış sazı görəndə şair olurdu, ozan olurdu. Özündən əvvəl klassiklərdən, müasirlərdən deyərdi, sonda özündən. Bax, bu idi onun şəxsiyyəti.

Mən maraqlı xatirələrin, videoların, şəkillərin iziylə Zəlimxanla Borçalını gəzdim. Onun sadəliyi, səmimiliyi bir yana, o yığıncaqların hərəsi bir dastan idi. Bəli, o olduğu hər bir məclis bir dastan idi. Doğrudan da olduğu hər görüşdə Zəlimxan öz dastanını yazıb gedirdi. Mən ona dahi deməkdən çəkinmirəm. Onun qədər ədəbi yaddaşa malik olan ikinci bir adam eşitməmişəm. Hətta az qalıram ona yaddaşı kitabxana olan insan deyəm.

Az zamanda dahi Zəlimxan Yaqubu hamıdan yaxşı tanıdım, mənə elə gəldi ki, ən yaxın dostu, qardaşı, anası, bacısı, övladı belə onu mənim qədər tanıya bilməzdi. Çünki uşaqlıq dostlarıyla danışdım, amma gənclik, tələbəlik yoldaşları onun uşaqlıq xatirələrindən xəbərsiz idilər. El adamları ədəbi mühitdəki münasibətlərini bilmədilər, rəsmi işçilər ondan dünəndən xəbərsiz idilər. Mən iki ay araşdırma apardım, müxtəlif təbəqələrdən xatirələri dinlədim, kövrəldim, fəxr etdim və düşündüm ki, doğrudan da “Ölüm bilsəydi kimi aparır, özü də ölərdi xəcalətindən”...

Yalnız bircə cümləm var: əvəzsiz insan! Dünyada Zəlimxandan olmayıb, o, yeganə dahi idi. Heyif, çox heyif... Təskinliyi onda görürəm ki, o hər yerdə yaşayır – səsiylə, avazıyla, sazıyla, nitqiylə, sözüylə...

Çox böyük sevgi və ehtiramla:

**Esmira Ələkbərli**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# UŞAQLARIN SAVADSIZLIĞA MEYİLLİLİYİ



İnsan yaşa dolduqca elmin, savadın və təhsilin dəyərini daha aydın şəkildə dərk edir. Zaman keçdikcə başa düşür ki, bilik insanın həm özünü, həm də həyatını qoruyan ən güclü silahdır. Təəssüf ki, bu həqiqət uşaq yaşlarında hiss edilmir. Uşaqlar üçün isə elm səbir tələb edən və bəzən də mənasız görünən bir anlayışdır. Məhz bu səbəbdən savadın əhəmiyyətini onalara ilk olaraq valideynlər öyrətməli, bunu təkcə sözlə yox, davranışları ilə də göstərməlidirlər. Lakin yaşadığımız dövrdə bu olduqca çətin məsələdir. Bu gün uşaqlar deyilən sözə qulaq asmır, məsləhəti eşitmir, ətrafındakı digər uşaqların təsiri altında qalır, hətta xeyirinə deyilən cümləni belə tərsinə qəbul edirlər. Valideyn “can” deyəndə də uşaq “çor” eşidir. Çünki uşaqların diqqəti artıq deyilən sözdə deyil.

Bu laqeydliyin və savadsızlığa meyilliliyin bir çox səbəbi var. Təəssüf ki, uşaqlar dərk etməsələr də bəziləri təhlükəli səbəblərdir. Bu təhlükəli səbəblərdən biri zorakılıq üzərində qurulmuş mobil oyunlarıdır. Bu cür oyunlar uşaqların zehnini inkişaf etdirmir, əksinə, aqressiyasını artırır və oxumağa, düşünməyə olan marağını öldürür. Bununla yanaşı uşaqların psixologiyasını çox ciddi şəkildə pozur. Artıq uşaqlar elə düşünürlər ki, hər məsələ zorakılıqla həll olunur, hər çətinliyin öhdəsindən vurub-dağıtmaqla gəlmək olur. Beləcə, uşaq dönüb olur od parçası və zorakılığa meyilli biri.

Digər ciddi problem isə “TikTok” kimi sosial platformalardır. Qısa və məzmunsuz videolar uşaqları düşünməkdən uzaqlaşdırır, diqqət dağınıqlığı yaradır və onları kitaba, elmə yadlaşdırır. Nəticədə uşaq öyrənən yox, sadəcə baxan və təkrarlayan varlığa çevrilir. Bu isə gələcək üçün təhlükəli siqnaldır.

Telefondan asılılıq uşaqlarda diqqət dağınıqlığı, disleksiya kimi xəstəliklərlə yanaşı fiziki sağlamlıqlarında da ciddi fəsadlar yaradır. Belə ki, boyun sümüklərində əyrilik, skolioz, göz zəifliyi və başqa problemlərə səbəb olur.

Bəzi valideynlər bunun fərqində olub uşaqlarını telefondan uzaq tutmağa çalışırdı. Amma 2020-ci ildə əsrin bəlası kimi qəbul etdiyimiz “COVID–19” pandemiyası zamanı məktəblər məcbur onlayn təhsil sisteminə keçdi. Uşaqların telefon asılılığı da elə bununla başladı. Dərsdən geri qalmasın deyə valideynlər məcbur olub borc-xərc, kredit – nə yolla olur olsun uşağa telefon aldılar. Onlar da telefonda vaxt keçirməyin dərs oxumaqdan daha asan olduğunu görüb heç əllərindən yerə qoymadılar. Sonra valideynlər nə qədər çalışsalar da uşağı telefondan ayıra bilmədilər.

Uşaqların savadsızlığa meyilliliyinin digər bir mühüm səbəbi də ailələrdir. Kitab oxunmayan, öyrənməyə dəyər verilməyən bir mühitdə böyüyən uşaq üçün bilik üstünlük hüququ qazanmır. Valideynlərin “qiymət alsın, sinifdə qalmasın kifayətdir” yanaşması isə uşağın təhsilini məqsədsiz bir formaya gətirib çıxarır.

Məktəblərdə də problem az deyil. Əzbərləməyə əsaslanan təhsil sistemi uşaqların düşünmə qabiliyyətini zəiflədir. Dərs oxumaq artıq uşaqların gözündə inkişaf vasitəsi deyil, məcburi yük kimi formalaşır. Nəticədə uşaqlar oxumaqdan uzaqlaşır və daha asan yolla öyrənilən məlumatlara meyil edirlər. Beləcə, uşaqlardakı savadsızlığa meyillilik gələcəyin çox ciddi problemlərinin əsasını qoyur. Düşünməyən, analiz etməyən, oxumayan nəsil asan idarə olunan kütləyə çevrilir.

Yaxından tanıyıb xüsusi hörmət bəslədiyim bir xanım tez-tez uşaqlarının gələcəyi üçün narahatlığını dilə gətirir. Özü ziyalı ailənin qızı və savadlı bir qadın olduğu üçün övladlarından da eynisini tələb edir. Hər dəfə danışanda onun qorxusu gözlərində açıqca görünür. Deyir ki, “uşaqlara başa salıram biliyin, savadın nə qədər vacib olduğunu, ancaq onlar üzümə elə baxırlar, sanki sözlərini bitir get, biz də oyunlarımıza qayıdaq deyirlərmiş kimi”.

Savadsızlığa meyillilik təkcə uşaqların problemi deyil, cəmiyyəti də narahat edən çox ciddi məsələdir. Yaşadığımız dövrdə informasiya bolluğuna baxmayaraq uşaqlar arasında bu problem getdikcə artır. Biliyə çıxış imkanları genişləndikcə bilik əldə etməyə maraq da azalır. Bu hal da bütövlükdə cəmiyyətin intellektual səviyyəsinə təsir göstərir. Savadsızlıq yalnız oxuyub-yazmamaq deyil, düşünə bilməmək, nələrisə analiz edə bilməməkdir. Savadsız uşaq sabah savadsız cəmiyyət deməkdir. Bu gün uşağın dünyagörüşü yalnız ekranla məhdudlaşırsa, sabah onun düşüncə sərhədləri də o ekran qədər dar olacaq.

Bu problemin qarşısını almaq üçün ailə, məktəb və cəmiyyət birlikdə məsuliyyət daşımalıdır və bunu aradan qaldırmaq üçün yol tapmalıdırlar. Uşaqlara bilik sevgisi zorla deyil, nümunə və doğru yönləndirmə ilə öyrədilməlidir. Çünki savadlı uşaqlar yalnız öz gələcəyini deyil, cəmiyyətin sabahını da qururlar.

**Afaq Azər**

# GÜRCÜSTANIN ALİ TƏHSİL SİSTEMİ TARİXİ İRS VƏ MODERN İSLAHATLARIN KƏSİŞMƏSİNDƏ



Qafqazda ali təhsilin beşiyi sayılan və 1918-ci ildə Tbilisidə təməli qoyulan ilk Dövlət Universitetinin tarixi mirası bu gün maraqlı, həm də düşündürücü bir təzadla üz-üzədir. Bir əsr əvvəl bölgənin intellektual mayakı kimi doğulan Gürcüstan ali təhsil sistemi bu gün həm milli kimliyin qorunması, həm də qlobal rəqabətə davam gətirmək üçün struktur islahatlarının ağır yükünü çiyinlərində daşıyır. Lakin mövcud mənzərəyə nəzər saldıqda görürük ki, ali təhsil artıq sadəcə auditoriya divarları arasında qalan bir məsələ deyil, bu, ölkənin demoqrafik gələcəyi, regional balansı və iqtisadi müstəqilliyi ilə birbaşa bağlı olan milli strateji problemdir.

Bu gün Gürcüstan təhsilinin ən ağrılı yeri coğrafi mərkəzləşmənin yaratdığı disbalansdır. Statistik rəqəmlərin soyuq dili bizə deyir ki, tələbələrin 85 %-dən çoxu Tbilisiyə axın edib və burada sıxılıb qalıb. Bu, sadəcə paytaxtın infrastruktur baxımından yüklənməsi, mənzil bazarındakı süni qiymət artımı və ya küçələrin sıxlığı deyil, bu, eyni zamanda regionların intellektual baxımdan "qansızlaşması" deməkdir. Gənclərin kütləvi şəkildə paytaxta axını regionlarda inkişaf enerjisini söndürür, kənd və qəsəbələri gələcəksiz qoyur. Hökumətin ali təhsil sistemi islahatının milli konsepsiyası çərçivəsində Kutaisini ikinci böyük mərkəzə çevirmək, Batumi, Telavi, Qori və Zuqdidi kimi şəhərlərdə profil yönümlü universitetlər yaratmaq cəhdi kağız üzərində olduqca məntiqli görünür. Lakin burada bir jurnalist sualı yaranır: biz sadəcə binaları regionlara köçürürük, yoxsa təhsilin ruhunu?

Əgər region universitetləri müasir laboratoriyalar, yüksək sürətli internet, cəlbedici yataqxanalar və ən əsası real karyera vədləri ilə təmin olunmasa, bu dekonsentrasiya cəhdi sadəcə "inzibati köç" olaraq qalacaq. Regionlarda yalnız binaların yüksəlməsi kifayət deyil, orada həm də gənclərin sosial və mədəni ehtiyaclarını qarşılayan, onları paytaxtın parıltısından daha çox cəlb edəcək bir intellektual ekosistem qurulmalıdır. Əks halda, bu cəhd paytaxtın yükünü azaltmaq əvəzinə, dövlət vəsaitlərinin istifadəsiz binalara xərclənməsi ilə nəticələnəcək.

Sistemin daxilindəki digər bir uçurum isə diplomların hüquqi bərabərliyi ilə bilik keyfiyyətinin kəskin fərqliliyi arasındadır. 19 dövlət və 45 özəl universitetin fəaliyyət göstərdiyi bir mühitdə diplomların hamısının eyni çəkiyə malik olması əmək bazarında əsl xaos yaradır. İşəgötürənlər artıq diplomun rənginə deyil, namizədin hansı universitetin dəhlizlərindən keçdiyinə baxırlar. İslahatın təklif etdiyi "bir şəhər – bir fakültə" prinsipi resurs israfının qarşısını almaq üçün effektiv mexanizm ola bilər. Məsələn, bir region aqrar sahədə ixtisaslaşırsa bütün elmi və texniki bazanın orada cəmləşməsi rəqabət qabiliyyətini artıra bilər. Lakin bu yanaşma tətbiq olunarkən akademik azadlıq və sağlam rəqabət mühiti qurban verilməməlidir. Yəni ixtisaslaşma adı altında rəqabətin yox edilməsi təhsildə inkişafı ləngidən "akademik inhisarçılığa" yol açmamalıdır. Bir şəhərdə yalnız bir fakültənin olması resursların idarə olunmasını asanlaşdıra bilər, lakin bu modelin uğuru həmin fakültənin həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə müqayisə oluna bilən standartlara cavab verməsindən asılıdır. Əgər bir bölgə müəyyən bir sahə üzrə mərkəzə çevrilirsə, o, sadəcə inzibati qərarla deyil, təqdim etdiyi elmi innovasiyalar və yetişdirdiyi peşəkar kadrlarla bu statusu qazanmalıdır. Belə olan təqdirdə, ali təhsil müəssisələri arasındakı uçurum süni şəkildə qapadılmaq əvəzinə, keyfiyyət yarışı sayəsində təbii olaraq aradan qalxacaq və "diplom xaosu" yerini ləyaqətli bilik rəqabətinə verəcəkdir.

Həmçinin onu da qeyd etmək lazımdır ki, universitetlərin sadəcə dərsliklərin oxunduğu mərkəzlər deyil, tədqiqat və innovasiya ocaqları olması hədəfi isə hələ ki, maliyyələşmə modelinin sualları altında əzilir. Tədqiqatın maliyyələşməsi yalnız dövlət sifarişinə bağlansa, elmin müstəqilliyi və fundamental, "uzaq vuran" araşdırmaların taleyi risk altına düşə bilər. Elm yalnız dövlətin bu gün ehtiyacı olan sahələrə deyil, həm də gələcəyin bilinməyən çağırışlarına hazır olmalıdır. Xarici tələbələrin cəlb edilməsi strategiyası isə bir tərəfdən ölkəyə valyuta axını deməkdir, digər tərəfdən isə yerli tələbələrin keyfiyyətli təhsil resurslarına çıxışını məhdudlaşdırmamalıdır.

Kadr siyasəti isə bəlkə də bu islahatın ən kövrək halqasıdır. Yarımştat çalışan, aşağı əməkhaqqı ilə bir neçə yerdə dərs deyən dırnaq içində qaçaraq müəllim modeli ilə yüksək akademik standart qurmaq xəyalpərəstlikdir. Müəllimin fikri çörək pulu ilə auditoriya arasında bölünəndə orada elmi kəşflərdən və innovasiyadan danışmaq sadəcə romantikadan ibarət olur. Konsepsiyanın tam ştatlı professor heyəti və xarici mütəxəssisləri cəlb etmək planı təqdirəlayiq olsa da, onların yerli mühitə adaptasiyası və uzunmüddətli motivasiyası üçün konkret mexanizmlər hələ də dumanlı görünür. Xarici professoru gətirmək işin yarısıdır, onu ölkədə saxlayacaq akademik azadlıq, sosial təminat və tədqiqat mühiti yaratmaq isə əsl sınaqdır. Bizə binalardan daha çox o binaların daxilində yeni nəsil yetişdirəcək sabit, təminatlı və stimullaşdırılmış beyin mərkəzləri lazımdır.

Əmək bazarı ilə təhsil arasındakı "lal dialoq" da başqa bir kritik problemdir. İllərdir bəzi sahələrdə işsiz kadr ordusu yetişdirilir, digər tərəfdən isə texnoloji, mühəndislik və müasir aqrar sahələrdə kəskin mütəxəssis qıtlığı yaşanır. Kvotaların dövlət sifarişinə uyğunlaşdırılması bu boşluğu doldurmaq üçün bir fürsətdir, lakin bazarın dinamikliyi hər zaman dövlət planlamasından sürətlidir. Əgər bu günün kvotası beş-on il sonranın iqtisadiyyatını, süni intellektin və rəqəmsal transformasiyanın gətirəcəyi dəyişiklikləri görmürsə, biz yenə də keçmişin tələblərinə cavab verən diplomlu işsizlər istehsal edəcəyik.

Nəticə etibarilə, Gürcüstanın təhsil islahatı sadəcə texniki bir yenilənmə deyil, bir milli varlıq mübarizəsidir. Ali təhsilin modernləşdirilməsi həm də gənclərin ölkədən beyin axınının qarşısını almalı, onları Gürcüstanın daxilində quruculuğa sövq etməlidir. İslahatların uğuru sənədlərdəki cəlbedici bəndlərlə deyil, bir tələbənin öz regionunda qalıb paytaxtdakı həmyaşıdı ilə eyni keyfiyyətdə təhsil alaraq öz gələcəyini burada qura biləcəyi gün ölçüləcək.

Biz 100 illik tariximizlə öyünüb, gələcəyimizi isə sistemli problemlərin və reallaşmayan vədlərin içində itirməyə davam edə bilmərik. Gürcüstan təhsili keçmişin şöhrəti ilə gələcəyin ehtiyacları arasında elə bir körpü qurmalıdır ki, bu körpüdən keçən hər bir gənc ölkənin sosial-iqtisadi tərəqqisinin lokomotivinə çevrilsin. Ali təhsil yalnız bilik verməli deyil, həm də gələcəyə inam yaratmalıdır. Bu, sadəcə bir konsepsiya deyil, Gürcüstanın sabahının manifesti olmalıdır.

**Çiyalə Osmanova**
*Tbilisi Dövlət Universitetinin Sosial və siyasi elmlər fakültəsinin 2-ci kurs tələbəsi*

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 YANVAR
2026-Cİ İL
№ 01 (241)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## 2025-Cİ İLDƏ 117 MƏKTƏB VƏ 103 BAĞÇA AVTORİZASİYADAN UĞURLA KEÇİB



განათლების ხარისხის განვითარების ეროვნული ცენტრი

Təhsilin Keyfiyyətinin İnkişafı Mərkəzinin məlumatına görə, 2025-ci ildə 117 məktəb avtorizasiyadan keçib. Həmçinin 102 ictimai, 1 özəl müəssisə erkən və ya məktəbəqədər müəssisə statusu əldə edib.

***Ümumi təhsilin keyfiyyətinin təmin edilməsi üçün ötən il aşağıdakı tədbirlər həyata keçirilib:***

•2025-ci ildə 109 ictimai və 8 özəl ümumtəhsil müəssisəsi avtorizasiyadan keçib. Ümumilikdə 574 ictimai və 206 özəl ümumtəhsil müəssisəsi avtorizasiya əldə edib.

•Özünüqiymətləndirmə və avtorizasiya üçün müraciətin hazırlanması ilə əlaqədar ictimai ümumtəhsil müəssisələrinə dəstək tədbirləri keçirilib.

•Avtorizasiyadan keçmiş özəl və ictimai məktəblərin imkanlarının gücləndirilməsi məqsədilə daxili keyfiyyətin təmin edilməsi istiqamətində təlimlər/dəstək tədbirləri keçirilib.

•Ümumtəhsil müəssisələrinin avtorizasiya üzrə ekspertlərinin və avtorizasiya şurası üzvlərinin imkanlarının gücləndirilməsi tədbirləri həyata keçirilib.

•Ümumtəhsil müəssisələrinin avtorizasiya standartlarının bələdçisi hazırlanıb.

***Erkən və məktəbəqədər tədris və təhsilin keyfiyyətinin təmin edilməsi üçün ötən il aşağıdakı tədbirlər həyata keçirilib:***

•İlk dəfə 2025-ci ildə erkən və ya məktəbəqədər təhsil müəssisəsi statusu əldə etmək istəyən 121 müəssisə mərkəzə avtorizasiya üçün müraciət edib. Bu günə olan vəziyyətə görə, 102 ictimai və 1 özəl müəssisə avtorizasiyadan keçib.

•Erkən və məktəbəqədər tədris və təhsil müəssisələrinin avtorizasiya şurasının yenilənmiş tərkibi təsdiqlənib. İmkanların gücləndirilməsi üçün onlara təlimlər keçirilib.

•2026-2029-cu illərin avtorizasiya prosesinin qrafiki ilə nəzərə alınmış erkən təhsil və ya məktəbəqədər tədris müəssisələrinə sanitariya-gigiyena, qida və kurikulum istiqamətində (avtorizasiyanın II və IV standart) təlimlər keçirilib.

*Mənbə: etaloni.ge*

## "TÜRKİYƏ BURSLARI"NA QEYDİYYAT BAŞLAYIB

Türkiyənin təqaüdlə təhsil proqramı olan “Türkiyə Bursları” beynəlxalq tələbələrə və tədqiqatçılara Türkiyənin ən prestijli universitetlərində təqaüdlü təhsil almaq və elmi araşdırma aparmaq üçün qeydiyyat elan edib.

Proqramla təhsil bütün ixtisaslar üzrə bakalavr, magistratura, doktorantura və elmi-tədqiqat üzrə mümkündür. Bakalavr və magistratura səviyyəsində bir müraciətlə həm təqaüd, həm də universitet və ixtisas üzrə yerləşdirmə təmin edilir.

***Təqaüd çərçivəsində təmin edilən imkanlar:***

• Universitet və ixtisas üzrə yerləşdirmə;
• Yataqxana;
• Aylıq təqaüd;
• Sağlamlıq sığortası;
• Təhsil haqqı;
• Uçuş bileti;
• Türk dili kursu.

Müraciət etmək istəyənlər fevralın 20-nə kimi “Türkiyə Bursları”nın rəsmi veb-səhifəsində qeydiyyatdan keçə bilərlər: **“turkiyeburslari.gov.tr”**. Qeydiyyat yalnız elektron aparılır və ödənişsizdir.




## ŞAGİRDLƏRİN SAYI ARTIB, MƏKTƏBLƏRİN SAYI AZALIB

Gürcüstan Milli Statistika Xidmətinin məlumatına görə, ölkədə son 11 il ərzində şagirdlərin sayı artıb, ümumtəhsil müəssisələrinin (dövlət və özəl məktəblər) sayı isə azalıb.

Məlumata görə, 2025-2026-cı tədris ilinin əvvəlində Gürcüstanda 2292 dövlət və özəl məktəb fəaliyyət göstərib. Halbuki 2015-2016-cı tədris ilində onların sayı 2331 idi.

**Daha dəqiq desək, 2015-2016–2025-2026-cı tədris illərinin əvvəlində ümumtəhsil müəssisələrinin sayı belə dəyişib:**

2015-2016 – 2331;
2016-2017 – 2321;
2017-2018 – 2308;
2018-2019 – 2313;
2019-2020 – 2313;
2020-2021 – 2309;
2021-2022 – 2308;
2022-2023 – 2302;
2023-2024 – 2296;
2024-2025 – 2294;
2025-2026 – 2292.

Şagirdlərin sayına gəldikdə isə, Milli Statistika Xidmətinin məlumatına əsasən, 2025-2026-cı tədris ilinin əvvəlində ümumtəhsil müəssisələrində 644,2 min şagird təhsil alıb. 2015-2016-cı tədris ilində isə onların sayı 553,9 min təşkil edirdi.

**Daha konkret olaraq, 2015-2016–2025-2026-cı tədris illərinin əvvəlində dövlət və özəl məktəblərdə şagirdlərin sayı belə olub:**

2015-2016 – 553,9 min;
2016-2017 – 564,7 min;
2017-2018 – 575,2 min;
2018-2019 – 584,4 min;
2019-2020 – 592,9 min;
2020-2021 – 609,1 min;
2021-2022 – 624,5 min;
2022-2023 – 633,3 min;
2023-2024 – 634,3 min;
2024-2025 – 640,7 min;
2025-2026 – 644,2 min.

*Mənbə: edu.aris.ge*

## SƏS-KÜY YARADAN NƏQLİYYAT VASİTƏSİNİ İDARƏ EDƏNLƏR CƏRİMƏLƏNƏCƏK



Gürcüstanın İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliyə əsasən, yanvarın 1-dən etibarən nəqliyyat vasitələrinin yaratdığı həddindən artıq səs-küyə görə sürücülər cərimələnəcəklər.

Yeni qanuna görə, icazə verilən normadan artıq səs-küy yaradan nəqliyyat vasitəsini idarə edən sürücülər 100 lari məbləğində cərimə ediləcəklər.

Qayda pozuntusu təkrarlandığı halda cərimə 200 lariyə, üçüncü və sonrakı hallarda isə 300 lariyə qədər artırılacaq.

Yeni tələblər bütün nəqliyyat vasitələrinə şamil olunur. Qərarın məqsədi şəhərlərdə səs-küy səviyyəsinin azaldılması, əhalinin rahatlığının təmin olunması və yol hərəkəti təhlükəsizliyinin artırılmasıdır.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b.
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.